Forma №3

# İSTEHSALAT SİFARİŞLƏRİNİ YERİNƏ YETİRƏN ŞAGİRD VƏ FƏHLƏLƏRİN ÜMUMİ YÜKLƏMƏ CƏDVƏLİ

| Detalların (məmulatın) adı | Yükləmə xəritəsinin №-si | Rüblər üzrə vaxt fondu (saatla) | | | Fəhlələr | Rüb üzrə plan tapşırığı (məmulatın miqdarı) | Vahid məmulat üçün yükləmə vaxtı (dəqiqə ilə) | | | Fəhlələr | Rüb üzrə plan tapşırıqlarının yerinə yetirilməsi (saatla) | | | Fəhlələr |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Şagirdlər | | | | | Şagirdlər | | | | Şagirdlər | | | |
| | | I kurs | II kurs | III kurs | | | I kurs | II kurs | III kurs | | I kurs | II kurs | III kurs | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |

| Rüblər üzrə iş (saatla) | | | | Əlavə tapşırıqların yerinə yetirilməsi üçün qalmış vaxt (saatla) | | | | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|
| Şagirdlər | | | Fəhlələr | Şagirdlər | | | Fəhlələr | |
| I kurs | II kurs | III kurs | | I kurs | II kurs | III kurs | | |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |





## Maşın və maşın əl əməyi peşələri üçün

| Təlim ayları | I kurs | II kurs | III kurs | |
|---|---|---|---|---|
| | İşinmürəkkəbliyi | | | |
| | 2-ci dərəcə | 2-ci dərəcə | 3-cü dərəcə | 4-cü dərəcə |
| Sentyabr | - | 2,5 | 2,0 | 3,0 |
| Oktyabr | 4,0 | 2,0 | 1,6 | 2,6 |
| Noyabr | 4,0 | 2,0 | 1,6 | 2,6 |
| Dekabr | 4,0 | 2,0 | 1,6 | 2,6 |
| Yanvar | 3,5 | 1,5 | 1,4 | 2,4 |
| Fevral | 3,5 | 1,5 | 1,4 | 2,4 |
| Mart | 3,5 | 1,5 | 1,4 | 2,4 |
| Aprel | 3,0 | 1,2 | 1,2 | 2,2 |
| May | 3,0 | 1,2 | 1,2 | 2,0 |
| İyun | 3,0 | 1,0 | 1,0 | 1,0 |

## Əl əməyi peşələri üçün

| Təlim ayları | I kurs | II kurs | III kurs | |
|---|---|---|---|---|
| | İşinmürəkkəbliyi | | | |
| | 2-ci dərəcə | 2-ci dərəcə | 3-cü dərəcə | 4-cü dərəcə |
| Sentyabr | - | 2,5 | 2,0 | 3,0 |
| Oktyabr | - | 2,5 | 1,9 | 2,8 |
| Noyabr | 5,0 | 2,5 | 1,8 | 2,6 |
| Dekabr | 5,0 | 2,5 | 1,7 | 2,4 |
| Yanvar | 4,5 | 2,9 | 1,6 | 2,2 |
| Fevral | 4,0 | 2,0 | 1,5 | 2,0 |
| Mart | 4,0 | 2,0 | 1,4 | 1,6 |
| Aprel | 3,5 | 1,5 | 1,2 | 1,2 |
| May | 3,5 | 1,5 | 1,0 | 1,0 |
| İyun | 3,5 | 1,5 | 1,0 | 1,0 |

## PEŞƏ MƏKTƏBİ VƏ PEŞƏ LİTSEYİNDƏ İXTİSASLI FƏHLƏ KADRLARININ HAZIRLANMASI, YENİDƏN HAZIRLANMASI VƏ İXTİSASININ ARTIRILMASI ÜÇÜN TƏDRİS PLAN VƏ PROQRAMLARININ TƏRTİBİNƏ DAİR

## T Ə L İ M A T

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 02.05.2000-ci il marixli 403 №-li əmri ilə məsdiq edilmişdir.*

**I. Ümumi müddəalar.**

1. Peşə təhsili müəssisələrində ixtisaslı fəhlə kadrlarının hazırlanmasına, yenidən hazırlanmasına və ixtisasının artırılmasına dair tədris planı və proqramları şagirdlərin bilik, bacarıq və vərdişlərinin məzmunu və həcmini müəyyən edən dövlət standartlarının tərkib hissəsidir.

2. Tədris plan və proqramları peşələr üzrə "Vahid tarif ixtisas sorğu kitabçası"na əsasən tərtib olunur və Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilir.

3. Peşə və ya peşə qrupları üzrə tədris plan və proqramları məcmuə şəklində hazırlanır və nəşr edilir. Məcmuədə aşağıdakı sənədlər olmalıdır:

- izahat vərəqəsi;
- peşə xarakteristikası;
- tədris planı;
- istehsalat təliminin və xüsusi texnologiyanın ümumi mövzu planı;
- ixtisas, ümumtexniki və ümumpeşə fənləri üzrə mövzu planı;
- ixtisas, ümumtexniki və ümumpeşə fənləri üzrə mövzu planları və proqramlar;
- istehsalat təliminin proqramı;
- tövsiyə edilən ədəbiyyatın siyahısı.



**II. İzahat vərəqəsi.**

4. İzahat vərəqəsində məcmuəyə daxil olan əsas sənədlər haqqında məlumat verilir, peşənin xüsusiyyətləri, proqramların məqsədi, təlim müddəti və qaydaları, təlim prosesinin təşkilinin səmərəli formaları aydanlışdırılır, tədris planının quruluşu, ayrı-ayrı fənlərin məzmunu və öyrənilməsi ardıcıllığı izah edilir.

**III. Peşə xarakteristikası.**

5. Peşə xarakteristikası dövlət sənədi olub, fəhlənin peşə biliyinə və ixtisas səviyyəsinə verilən standart tələbləri əks etdirir, peşə xarakteristikasında fəhlənin yiyələnməli olduğu biliklərə ("nəyi bilməlidir") və bacarıqlara ("nəyi ba-carmalıdır") verilən tələblər qruplaşdırılır.

6. Peşə xarakteristikası Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təs-diq edilən fəhlə peşələri və işlərin vahid tarif-ixtisas sorğu kitabçasına əsasən standartların tələbi nəzərə alınmaqla tərtib olunur.

Peşə xarakteristikası bütün peşələr üzrə fəhlələrin hazırlanması, həm də onların ixtisasının artırılması üçün tərtib edilməlidir.

7. Mürəkkəb və qarışıq peşələr üzrə peşə xarakteristikalarında hər dərəcəyə uyğun ixtisas səviyyəsi (dərəcə, sinif, kateqoriya), bu ixtisas dərəcəsi üzrə fəhlənin yerinə yetirməli olduğu işin məzmunu və mürəkkəbliyi, təlim müddətində şagirdlərin yiyələnəcəyi ümumtəhsil, ümumtexniki və peşə hazırlığının, istehsalat bilik və bacarıqlarının həcmini əks etdirməlidir.

8. Xüsusi idarələr və təşkilatlar tərəfindən nəzarət edilən obyektlərdə işlə əlaqədar olan peşələr üzrə peşə xarakteristikasında həmin idarə və təşkilatların təlimatları və tələbləri əks olunmalıdır.

## IV. Tədris planı.

9. Tədris planı dövlət sənədi olub təlimin məzmununu və ümumi şərtlərini müəyyənləndirir. Tədris planının quruluşu tədris müəssisəsinin tipindən, təlim müddətindən və öyrənilən fənlərdən asılı olaraq müəyyənləşdirilir.

10. Tədris planını başlanğıcında peşənin adı, təhsil bazası, təhsil müddəti, təsdiqi barədə Təhsil Nazirliyinin əmrinin nömrəsi və tarixi göstərilir.

11. Tədris planının strukturu aşağıdakı hissələrdən ibarətdir. Dərs ilinin strukturu: Burada kurslar üzrə tədris həftələrinin miqdarı, imtahan, tətil və bayram günləri, imtahana düşən fənlər və tədris yükünün bölgüsü əks olunur.

12. Tədris planında fənlərin siyahısı verilir, yarımillər və kurslar üzrə onların öyrənilməsi qaydası və ardıcıllığı müəyyənləşdirilir, ayrı-ayrı fənlərə həftəlik, yarımillik, illik və bütün təlim dövrü üçün ayrılan saatların miqdarı, imtahanlara düşən fənlər, imtahanlara, məsləhətlərə və laboratoriya-təcrübə məşğələlərinə ayrılan vaxt göstərilir.

13. Tədris planında fənlər elə yerləşdirilməlidir ki, onlar arasında əlaqə təmin edilmiş olsun.

14. Tədris planında hər fənnin öyrənilməsinə ayrılan vaxt onun peşə hazırlığı üçün vacib olması ilə müəyyənləşdirilir. Peşə hazırlığının əsasını təşkil edən istehsalat təliminə bütün tədris vaxtının təqribən 55-65 faizi ayrılmalıdır.

15. Peşə-ixtisas fənləri bölməsində xüsusi texnologiya və istehsalat təlimi əsas yer tutmalıdır. Ümumtexniki fənlərə istehsalatın texnologiyası, texnikası və təşkili məsələlərini aydınlaşdıran digər fənlər aiddir.

16. Tədris planının ümumtəhsil fənləri bölməsində əsas təhsildən sonra öyrənilən tədris materiallarının həcmi elmi biliklərin ümumi orta təhsilin dövlət standartlarının tələblərini təmin etməlidir.



17. Bütün peşələr üzrə tədris planlarına şagirdlərin təhsil səviyyəsindən asılı olaraq "İnsan və cəmiyyət", "Cəmiyyətşünaslığa giriş", "Bazar iqtisadiyyatının əsasları və istehsalın təşkili", "İnformatika və hesablama texnikasının əsasları", "Fiziki tərbiyə", "Estetik-tərbiyə", "Gənclərin çağırışa qədər hazırlığı" fənləri daxil edilməlidir.

18. Orta təhsil bazasında təhsil alan şagirdlərin istehsalat təcrübəsində həftəlik təlim yükü 40 saat, natamam orta təhsil bazasından isə 36 saat nəzərdə tutulur.

19. İstehsalatdan ayrılmamaqla ixtisaslı fəhlələrin hazırlanması üçün peşənin mürəkkəbliyindən asılı olaraq 6 ay, ayrı-ayrı mürəkkəb peşələr üzrə isə 1 il müəyyən edilir.

Nəzəri təlim gündə 4 saat olmaqla həftədə 4 gün planlaşdırılır. İstehsalat təlimi şəraitdən asılı olaraq tədris emalatxanalarında və ya istehsalatda, fəhlənin iş yerində iş vaxtı aparılması nəzərdə tutulur. Fəhləl№rin yenidən hazırlanmasında və ixtisasının artırılmasında təhsil müddəti 3-6 ay müəyyənləşdirilir.

20. Tədris planı hər tədris qrupunda yerinə yetirilməsi məcburi olan sənəddir və Azərbaycan Respublikası Təhsil Nazirliyinin icazəsi olmadan onda heç bir dəyişiklik edilə bilməz. Tədris planı əsasında bütün təlim-tərbiyə prosesi planlaşdırılır və təşkil edilir.

## V. Ümumi mövzular planı.

21. Ümumi mövzular planı iki bölmədən ibarətdir. Hər bölmədə həftələrin və mövzuların sayı, mövzuların adı və saatların miqdarı göstərilir. Birinci bölmədə istehsalat təliminin, ikinci bölmədə isə xüsusi texnologiyanın (və ya əsas texniki fənlərin) mövzularının adı yazılır.

Saatların miqdarı ardıcıl olaraq yarımillər və kurslar üzrə yekunlaşdırılır.

22. İstehsalat təlimi üzrə mövzular bölməsinə aşağıdakı məsələlər daxil edilir:

22.1. Texniki təhlükəsizlik qaydaları, yanğına qarşı tədbirlər, istehsalatla və peşənin xüsusiyyətləri ilə tanışlıq məsələlərinə dair mövzular;

22.2. Hazırlıq, köməkçi və əsas əməliyyatların yerinə yetirilməsi üçün ilkin vərdişlərə yiyələnməsini və ya həmin ixtisas üzrə fəhlə tərəfindən yerinə yetirilən ayrı-ayrı işlərin icra edilməsini nəzərdə tutan mövzular;

22.3. Şagirdlər tərəfindən işlərin müstəqil yerinə yetirilməsini nəzərdə tutan, peşə xarakteristikası və tədris proqramının digər tələblərini ödəyən mövzular.

Hər bir mövzunun öyrənilməsi vaxtı saatla göstərilir.

23. Nəzəri və istehsalat təlimi mövzularının öyrənilməsində məntiqi ardıcıllıq və məqsədəuyğunluq, nəzəri təlim mövzuları istehsalat təlimi mövzularının öyrənilməsini bir qədər qabaqlaması gözlənilməlidir.

Təhsil müəssisələri şəraitdən və istehsalatın xüsusiyyətlərindən asılı olaraq ümumi mövzular planında bir sıra dəyişikliklər edə bilərlər. Bu dəyişikliklər metodiki komissiyalarda müzakirə edilməli və tədris-istehsalat işləri üzrə direktor müavini tərəfindən təsdiq olunmalıdır.

**VI. Tədris proqramı.**

24. Tədris proqramı tədris planının əsasında tərtib edilməklə nəzəri və istehsalat təliminin məzmununu, həcmini və ardıcıllığını müəyyənləşdirən sənəddir.

25. Tədris proqramının tərtibində şagirdlərə tələb olunan bilik, bacarıq və vərdişlərin formalaşdırılması elm və texnika nailiyyətlərinin, mütərəqqi texnologiyaların əks etdirilməsi, nəzəriyyə ilə praktika arasında əlaqənin yaradılması, təlimin məhsuldar əmək və şagirdlərin tərbiyəsi ilə birləşdirilməsi prinsipləri nəzərə alınmalıdır.



26. Proqram mövzuları terminlərin, vahidlər sisteminin, dövlət standartlarının, digər norma və qaydaların vəhdəti təmin edilməklə aydın, qısa və yığcam şərh olunmalıdır.

27. Bütün peşələr üzrə proqramlarda texniki təhlükəsizlik tələblərinin, yanğın təhlükəsizliyi qaydalarının, əmək gigiyenası və sənaye sanitariyası əsaslarının, texniki estetika məsələlərinin, zay məhsulun qarşısının alınması, şagirdlərin əməyinin təşkilinin təkmilləşdirilməsi və yüksək məhsuldar iş şəraitinin yaradılması tədbirlərinin mütləq öyrənilməsi nəzərdə tutulmalıdır. Tədris proqramında maşın, mexanizm, apparat və avadanlığın quruluşu, iş prinsipi, onların təmiri və texniki xidməti, texnoloji əməliyyatlar üzrə öyrənilən peşənin tələb etdiyi həcmdə bilik, bacarıq və vərdişlərə şagirdlərin yiyələnməsinə imkan verən tədris materialı əks etdirilməlidir. Bu məsələlərdə sadədən mürəkkəbə, asandan çətinə doğru didaktik prinsip nəzərə alınmalıdır.

28. İstehsalat təlimi, xüsusi texnologiya, digər ixtisas və ümumtexniki fənlər üzrə proqramlarda şagirdlər tə-rəfindən asan başa düşülən hesablama, texnoloji və digər funksiyalar, müvafiq mövzularda laboratoriya və praktiki işlər əks olunmalıdır.

29. İstehsalat təlimi proqramı ixtisas dərəcəsini və əmək məhsuldarlığını tədricən artırmağa şərait yaradan əməliyyat-kompleks sistemi üzrə qurulmalıdır. Öyrənilən ayrı-ayrı əməliyyatların getdikcə mürəkkəbləşən kompleks işlərlə əvəz edilməsi əks edilməlidir.

30. İstehsalat təlimi üzrə proqramın tərtibində onun mərhələləri, tədris emalatxanasında təlim, istehsalatda tə-lim və istehsalat təcrübəsi nəzərə alınmalıdır. İstehsalatda təlim keçən dövrdə şagirdlərin tədris emalatxanasında al-dıqları bacarıq və vərdişlərin

daha da təkmilləşdirilməsinə yönəldilən proqram mövzuları nəzərdə tutulmalıdır.

31. Peşə təhsili müəssisələrində öyrənilən hər bir peşə üzrə iş verənlərin konkret şəraitindən asılı olaraq istehsalat təcrübəsinin müfəssəl proqramı işlənib hazırlanır.

32. Tədris proqramı hər bir tədris qrupunda məcburi yerinə yetirilən sənəd sayılır. Proqramda peşə təhsili müəssisələri tərəfindən sərbəst olaraq dəyişikliklərin aparılmasına icazə verilmir. Texniki tərəqqinin sürətli inkişafı ilə əlaqədar yeni texnikanın, texnologiyanın və qabaqcıl isteh-sal təcrübəsinin öyrənilməsinə dair materiallar proqramlara daxil edilməli, müvafiq köhnəlmiş tədris materialları proq-ramdan çıxarılmalıdır. Ayrı-ayrı mövzuların öyrənilməsi ardıcıllığında dəyişikliklərin edilməsinə icazə verilir. Bu də-yişikliklər metodiki komissiyalarda müzakirə edilməli və məktəbin (litsey) direktoru tərəfindən təsdiq olunmalıdır.



# PEŞƏ MƏKTƏBİ VƏ PEŞƏ LİTSEYİ İŞÇİLƏRİNİN İXTİSASININ ARTIRILMASINA, PEDAQOJİ VƏ TEXNİKİ MİNİMUMLARININ TƏŞKİLİNƏ DAİR

# T Ə L İ M A T

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 02.05.2000-ci il marixli 403 №-li əmri ilə məsdiq edilmişdir.*

**I. Ümumi müddəalar.**

1. İxtisas, pedaqogika, psixologiya elmləri və metoika üzrə yenilikləri,habelə elm və texniki nailiyyətləri, müasir texnologiyanı öyrənmək, onların təlim-tərbiyə prosesinə tətbiqini təmin etmək məqsədi ilə peşə təhsili müəssisələri işçilərinin ixtisasının artırılması təşkil olunur.

2. Peşə məktəbi və peşə litseylərinin mühəndis-pedaqoji işçiləri "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ən azı 5 ildən bir ixtisasını artırır və yaxud yeni ixtisas alırlar.

3. Pedaqoji təhsili olmayan lakin peşə təhsili müəssisələrində işləyən kadrların pedaqogika və psixologiya elmləri üzrə yenidən hazırlanması təmin olunur.

4. Peşə məktəbində (litsey) işləyən ümumtəhsil fənn müəllimlərinin təhsil müəssisəsinin profilinə uyğun istehsalatın əsaslarına və texniki biliklərə yiyələnməsi təşkil edilir.

**II. İxtisasartırmanın təşkili formaları və qaydaları.**

5. Peşə təhsili müəssisələri işçilərinin ixtisasının artırılması istehsalatdan ayrılmaqla və ayrılmamaqla təşkil olunur.

6. Peşə məktəbi və peşə litseyində işçilərin ixtisasının artırılmasına dair perspektiv və illik qrafiklər